Azərbaycan
TEXNİKİ
Universiteti

Azərbaycan Texniki Universitetinin Elmi Şurasının "27" dekabr 2024-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (Protokol № 03)

# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİ STRATEJİ İNKİŞAF PLANI 2024-2030

**İlkin sənəd:** Azərbaycan Texniki Universitetinin 2021-2030-cu illər üçün inkişaf strategiyası.

**BAKI-2024**

**Missiya, Vizyon, Məqsəd.** ...... 3
**GZİT (SWOT) təhlil** ...... 5
**2021-2024-cü illər üzrə SİP-in icra vəziyyəti.** ...... 5
**Strateji inkişaf planının Dayanıqlı inkişaf məqsədləri (SDG) ilə əlaqəsi** ...... 9
**1. Keyfiyyətli təhsil** ...... 10
**2. Tədqiqat və innovasiya** ...... 16
**3. Universitet-sənaye əməkdaşlığı** ...... 19
**4. Beynəlmiləlləşmə** ...... 22
**5.Sosiallaşma** ...... 24
**6.Dayanıqlı dünya** ...... 29
**SİP üzrə maliyyələşdirmə mexanizmi.** ...... 32
**SİP-in icrası.** ...... 32
**Monitorinq və qiymətləndirmə.** ...... 32
**İstinadlar** ...... 33

## Missiya, Vizyon, Məqsəd.

**Şüar: Yarat, inkişaf etdir, tətbiq et**

| | |
|---|---|
| **Missiya** | • **Mühəndislik elmləri və ağıllı texnologiyaların tətbiqi sahəsində qabaqcıl təhsil və tədqiqat potensialına malik olmaq.** |
| **Vizyon** | • **İnnovasiya və qabaqcıl texnologiyaların tətbiqi ilə gələcəyin mühəndislik sahələrində regionda lider universitet olmaq.** |
| **Məqsəd** | • **Rəqəmsal platformalarda texnoloji yeniliklər və ağıllı həllər təklif edərək, bu sahələrdə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasını təmin etmək.** |

## Güclü tərəflər

- AzTU-da tədqiqat və innovasiyalar sahəsində aparıcı universitet və təşkilatlarla (yerli və beynəlxalq) əməkdaşlığın mövcudluğu;
- Peşəkar, təcrübəli, beynəlxalq təhsil və tədqiqat layihələrində iştirak etmə potensialına malik professor-müəllim heyətinin mövcudluğu;
- İkili diplom proqramları, Erasmus+, DAAD və Avropa İttifaqının maliyyələşdirdiyi beynəlxalq layihələrdə zəngin təcrübənin olması;
- Tədris resurslarının tələbələrə çatdırılması, əlçatanlıq və çevikliyi təmin edən, müxtəlif texnoloji imkanları özündə cəmləşdirən Elektron Təhsil Sisteminin mövcudluğu;
- Texniki profilli ixtisaslar üzrə Azərbaycanda və regionda mütəxəssislərin yetişdirilməsi sahəsində ənənələrə malik olması;
- Universitet-sənaye əməkdaşlığı istiqamətində yeni müəssisələrlə əlaqələrin yaradılması və texniki ixtisaslar üzrə tələbələr üçün istehsalat təcrübə imkanlarının genişləndirilməsi;
- AzTU məzunlarının sənayenin müxtəlif sahələrində rəhbər vəzifələrdə çalışması;
- Müdafiə sənaye müəssisələri ilə kadr hazırlığı və birgə tədqiqatlar sahəsində uğurlu əməkdaşlıq;
- İnnovasiyaları dəstəkləmək məqsədilə yeni infrastrukturun yaradılması (məsələn, İnkubasiya və Akselerasiya Mərkəzləri və s.);
- Müasir peşə və ixtisasların bilavasitə AzTU-da daha çox mövcud olması.

## Zəif tərəflər

- ATM daxilində strukturlar arası iyerarxiya əsasında fəaliyyətlərin təşkili, qarşılıqlı əməkdaşlıq, kommunikasiya və hesabatlılığın zəif olması;
- "AzTU 2021-2030-cu illər inkişaf Strategiyası sənədindən irəli gələn məqsədlər üzrə hədəflərin fakültə, kafedra, şöbə və mərkəzlər səviyyəsində fəaliyyətlərində öz əksini tapmaması;
- Tədqiqat institutları ilə kafedraların və tədqiqat laboratoriyalarının fəaliyyətlərinin əlaqələndirilməsinin zəif olması;
- Universitetdə beynəlxalq layihələr, mobillik proqramları və tədqiqatlar həyata keçirilsə də akademik heyətin müvafiq layihələrdə iştirakının zəif olması;
- Yerli və əcnəbi tələbələr üçün yataqxana xidmətinin təmin olunmaması;
- Təhsil proqramları hazırlanmasında əmək bazarı tələbləri və beynəlxalq təcrübənin kifayət qədər nəzərə alınması;
- Akademik və inzibati heyətin təlim ehtiyaclarının müəyyənləşdirilməməsi və akademik heyətin müasir təlim texnologiyalarına yiyələnməsi üçün sistemili fəaliyyətin olmaması;
- Universitetdə sosial fəaliyyətlərin (təşkilatlar, klublar, dərnəklər), inklüzivlik, psixoloji dəstək xidmətlərinin zəif təşkil olunması;
- Xarici dil biliklərinin aşağı səviyyədə olması, vahid təlim metodologiyasının tətbiq olunmaması;
- İKT və proqramlaşdırma imkanlarının tətbiqi və istifadəsində çatışmazlıqların olması.

## İmkanlar

- Elmi tədqiqatlar istiqamətində dövlət dəstəyinin olması;
- Rəqəmsallaşma və İKT sahəsində inkişaf;
- Təhsil və tədqiqat sahəsində beynəlxalq əməkdaşlıq imkanlarının artması;
- Sosial-mədəni fəaliyyətlər;
- Beynəlxalq maliyyələşmə mənbələri və xarici investisiya imkanlarının olması;
- AzTU məzunlarının müxtəlif sahələrdə rəhbər vəzifələrdə çalışması, universitetin nüfuzunun artması və yeni əməkdaşlıq imkanlarının yaranması.

## Təhdidlər

- Maliyyə resurslarının məhdudluğu;
- Yerli və beynəlxalq ali təhsil müəssisələrində rəqabət artımı;
- İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı;
- Gənclərin elmi-tədqiqat və təhsil sahəsinə maraqlarının azalması;
- Əmək bazarının sürətlə dəyişən tələbləri;

## GZİT (SWOT) təhlil

## 2021-2024-cü illər üzrə SİP-in icra vəziyyəti.

| | |
|---|---|
| **Keyfiyyətli təhsil** | • Ömürboyu öyrənmə məktəbi AzTU-nun Elmi Şurasının 27 dekabr 2023-cü il tarixli iclasının Qərarı ilə müasir mühəndislik və biznesin tələb etdiyi fənlərin tədrisi üçün akademik heyətin davamlı təhsil ehtiyaclarını ödəmək məqsədilə yaradılmışdır. 2023/2024-cü tədris ilində ilk dəfə Azərbaycanda–Türk Aviasiya və Kosmik Sənaye Şirkəti (TUSAŞ) ilə əməkdaşlıq çərçivəsində sənaye yönümlü buraxılış işi–məzun layihələri müsabiqəsində Azərbaycan Texniki Universitetinin 3 layihəsi qalib elan olunmuşdur.<br>• AzTU 2022-ci ildə CDIO universitetlər sırasına qoşulmuşdur, CDIO-ya üzv qəbul olunma ilə əlaqədar olaraq təhsilin bakalavriat və magistratura səviyyələrində ixtisasların (ixtisaslaşmaların) tədris planlarında seçmə fənlər blokunda müvafiq dəyişikliklər aparılmışdır. Hər bir akademik il ərzində 100 nəfərədək, 2030-cu ilədək isə ümumilikdə ən azı 1000 tələbənin hazırlanması nəzərdə tutulur.<br>• 2022-ci ildən etibarən Tələbələrin əmək bazarının tələblərinə cavab verilməsi üçün bəzi ixtisaslarda birinci və ikinci tədris illərində “Yumşaq bacarıqlar” fənni üzrə tədris aparılır, digər ixtisaslarda isə “İxtisasa giriş” fənninin proqram və sillabuslarının hazırlanması prosesi yerinə yetirilir.<br>• 2023/2024-cü tədris ilinin başlanğıcından əməkdaşlıq edilən Türkiyə və Almaniya üniversitetləri ilə layihə və problem əsaslı öyrənmə metodologiyaları üzrə əməkdaşlıq planlarının işlənilməsinə başlanılmışdır.<br>• 2023/2024-cü tədris ilinin başlanğıcından “Gələcəyin ixtisasları” – Süni intellect, Mexatronika, Robototexnika və Avtomatlaşdırma yönümlü ixtisaslar üzrə mütəxəssis hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə bu ixtisasların tədris planlarında müvafiq dəyişikliklər edilməsinə və ixtisasyönümlü təlimlərin təşkil edilməsinə başlanılmışdır. |
| **Tədqiqat və innovasiya** | • AzTU-nun professor-müəllim heyətinə (720 əməkdaş) "AMAS sistemindən istifadə qaydaları", Akademik sosial şəbəkələrdə profillərin yaradılması və onlardan istifadə" məlumatlandırıcı təlimləri keçirilmiş, 642 əməkdaşın şəxsi məlumatları sistemə yerləşdirilmişdir, akademik sosial şəbəkələrdə profillərdə artım müşahidə edilmişdir.<br>• AzTU-da yerinə yetirilmiş təsərrüfat hesablı elmi-tədqiqat işlərindən bəziləri istehsalatada tətbiq edilmişdir.<br>• Universitetin "Elmi əsərlər" jurnalının redaksiya heyəti yenidən təşkil edilmiş, "Machine Science" (Maşınşünaslıq) elmi-texniki jurnalının yeni redaksiya heyəti yaradılmış, jurnalın indeksləşdirilməsinə nail olunmuşdur.<br>• SCOPUS-da dərc olunan məqalələrin sayında 2022-ci illə müqayisədə 2023-cü ildə 32.56% artım müşahidə edilmişdir. 2022-2023-cü illərdə WOS bazasınsa 70 məqalə dərc edilmişdir.<br>• Doktorantura səviyyəsində təhsil alan doktorantları sayı 2023-cü ildə 177 nəfər təşkil etmişdir, müdafiə edənlərin sayı 25 nəfər təşkil edtmişdir. 2023-cü ildə 5 elmi texniki, beynəlxalq elmi konfrans keçirilmişdir.<br>• 2023-cü ildə əvvəlki illərlə müaqyisədə alınan patentlərin sayında artım müşahidə olunmuşdur.<br>• 22-23 iyun 2023-cü il tarixlərində Heydər Əliyevin anadan olmasının 100- cü il dönümünə həsr olunmuş **“Müdafiə sənayesi üzrə ixtisaslı kadr hazırlığı: radioelektron, aerokosmik sistemlər və robotlar”** adlı II Respublika elmi-texniki konfransı keçirilmişdir. |

| | |
|---|---|
| | • 4-5 dekabr 2023-cü il tarixlərində Azərbaycan Texniki Universiteti (Azərbaycan), Brandenburq Texniki Universiteti (Brandenburq, Almaniya) və Qazi Universitetinin (Türkiyə) təşkilatçılığı ilə **“Maşınqayırma və enerji: yeni konsepsiyalar və texnologiyalar”** mövzusunda II beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.<br>• 1-2 may 2024-cü il tarixlərində Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş tələbə və gənc tədqiqatçıların **“Mütərəqqi texnologiyalar və innovasiyalar”** mövzusunda IX Respublika elmi-texniki konfransı keçirilmişdir.<br>• 23-25 may 2024-cü il tarixlərində Türkiyə Respublikasının Tokat Gaziosmanpaşa Universiteti və Azərbaycan Texniki Universitetinin (AzTU) birgə təşkilatçılığı ilə **I Beynəlxalq İqtisadi və İnzibati Araşdırmalar Konfransı** keçirilmişdir.<br>• 17-18 oktyabr 2024-cü il tarixlərində Azərbaycan Texniki Universitetində (AzTU) **Beynəlxalq Elm və Texnologiya Konfransı (ISTEC)** keçirilmişdir.<br>• 27-29 noyabr 2024-cü il tarixlərində COP-29 çərçivəsində RİSK 2024 **“İqlim Dəyişikliklərinin Təbii və Texnoloji Risklərinin Minimumlaşdırılmasında İnnovasiyalar: Metodologiya və Təcrübə”** adlı 6-cı Avrasiya Konfransı keçirilmişdir.<br>• 4-5 dekabr 2024-cü il tarixlərində Azərbaycan Texniki Universiteti (AzTU) (Azərbaycan), İnformasiya Texnologiyaları İnstitutu (Azərbaycan), İdarəetmə Sistemləri İnstitutu (Azərbaycan), Milli Müdafiə Universiteti (Azərbaycan), Milli Aerokosmik Agentliyi (Azərbaycan), İstanbul Texniki Universiteti (Türkiyə), Milli Texniki Universitetinin "Xarkov Politexnik İnstitutu" (Ukrayna), Qazi Universitetinin (Türkiyə) təşkilatçılığı ilə **II beynəlxalq elmi-texniki konfrans Konfrans** keçirilmişdir.<br>• 19-21 dekabr 2024-cü il tarixlərində Azərbaycan Texniki Universitetində Qırğız-Türk Manas Universiteti (QTMU), Əhməd Yasavi Universiteti və Niğde Ömər Halisdemir Universiteti (NOHU) ilə birgə Elm və Mühəndislik üzrə **VI Beynəlxalq Türk Dünyası Konfransı (TURK-COSE )** keçirilmişdir. |
| **Universitet-sənaye əməkdaşlığı** | • Azərbaycan Texniki Universitetinin müxtəlif kafedra müəllimləri tərəfindən sənayedən gələn sifarişlər əsasında sənayedəki problemlərin həllinə yönəlmiş layihələr hazırlanmış, əməkdaşlıq memorandumları imzalanma mərhələsindədir:<br>• **“İqlim Elmi İstehsalat Müəssisəsi” MMC - “Nanotexnologiya ilə örtük çəkilmiş atıcı silahların lülələrinin daxili səthinin mexaniki emalı”, “Kosmik Cihazqayırma Məxsusi Konstruktor Bürosu” - “Yerüstü pilotsuz vasitələrin layihələndirilməsində istehsal texnologiyasının tədqiqi”, “Şirvan Araz zavodu” MMC - “Trinitridrezorsinin sənaye üsulu ilə alınma texnologiyasının işlənməsi və onun “Şirvan Araz zavodu” MMC-də tətbiqi”**<br>• AzTU-nun müəllimləri ölkə üzrə müxtəlif qrant müsabiqələrdə sənaye əsaslı layihələrlə iştirak edərək, qrant qazanmışlar:<br>• Azərbaycan Elm Fondunun "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş "Əsas qrant Müsabiqəsi-2024"-2n (AEF-MGC-2024-2(50)) - **"Rəqəmli proqramla idarəolunan dəzgahlarda iqtisadi emal şərtlərinin texnoloji təminatı"** layihəsi<br>• Kiçik və Orta Biznesin İnkişafı Agentliyi - "**Aşağı temperaturlu geotermal sulardan elektrik və istilik enerjisi istehsalının tədqiqi"**<br>• AzTU sonuncu tədris ili tələbələri tərəfindən ölkədə və beynəlxalq ekosistemdə elan olunmuş müxtəlif qrant müsabiqələrində sənaye əsaslı layihələrlə çıxış edərək qrant qazanmışlar:<br>• “TUSAŞ Lift Up” Sənaye Yönümlü buraxılış (Məzun) Layihələri **“Alüminyom Alaşım İşlemesinde Kuvvet Analizlerine Bağlı Olarak Kesici Takım Modellenmesi”, “İnce cidarlı yüksek duvarlarda talaş kaldırma operasiyonları”, “Talaşlı imalat parçalarında malzeme haddeleme yönüne bağlı olarak residual stresslerin azaltımı ve NC program optimizasyonu”, “Yeşil talaşlı imalat ve kesici takımların sürdürülebilirliği”, “Kesici takım geometrisinin talaşlı imalat performansına etkisi”** və s. |
| **Beynəlmiləşmə** | • AzTU AzTU Avropa Birliyinin maliyyə dəstəyi ilə həyata keçirilən Erasmus+ KA2 proqramı çərçivəsində IQAinAR, DIRNA, ENGAGE, ECAR, LMQSante, UniClaD, CRENG layihələrində iştirak etmişdir. Layihələr üzrə səfərlərdə 60 nəfər iştirak etmişdir. |

| | |
|---|---|
| | • Əcnəbi tələbələrin say dinamikasında 2024/2025-ci tədris ilində ötən illərlə müqayisədə 19% artım müşahidə olunmuşdur.<br>• 2024-cü il ərzində 30 universitetlə əməkdaşlıq müqaviləsi imzalanmışdır. İsrail və Türkiyənin 2 universitetilə magistratura təhsil səviyyəsi üzrə ikili diplom proqramaları hazırlıq mərhələsindədir. Cari il ərzində AzTU-ya 142 əcnəbi qonaq gəlmişdir.<br>• Erasmus+ mübadilə proqramı çərçivəsində 26 müqavilə imzalanmış, 21/1 tələbə və 18/10 akademik/inzibati heyət mübadilədə iştirak etmişdir. Erasmus+qrant layihələrinin 2024-cü il çağırışına AzTU-nun koordinatorluğu ilə 4CBHE və 5 Jean Monnet layihəsi ilə müraciət edilmişdir. AzTU-nun koordinatorluğu ilə OPTIFY layihəsi və AzTU-nun tərəfdaş qismində iştirak etdiyi iki layihə (EU-AGM, Green Tech Horizons) qrant qazanmışdır.<br>• AzTu-da əcnəbi tələbələr üçün hazırlıq kursu təşkil edilmiş, son iki tədris ilində bu kurslarda 161 tələbə iştirak etmişdir.<br>• Erasmus+qrant layihələri ilə bağlı məlumatlandırma sessiyaları, Erasmus+CBHE layihə təklifinin yazılması barədə 3 həftəlik təlim keçirilmişdir. Bu layihə çərçivəsində AzTU-dan 11 akademik, 24 inzibati, 6 tələbə, qarşı tərəfdən 63 akademik, 8 əcnəbi tələbə mübadilədə iştirak etmişdir.<br>• DAAD ilə bağlı ildə 2 dəfə məlumatlandırma sessiyası, Alman mədəniyyəti günü təşkil edilir. DAAD "Şərqə get" Yay məktəbi çərçivəsində 8 nəfər tələbə AzTU-da yay məktəbində iştirak etmişdir. |
| **Sosiallaşma** | • 2024-cü ildə Məzunlar Assosiyası təsis edilməsilə bağlı AzTU EŞ-da qərar qəbul edilmişdir. Assosiasiyanın Əsasnaməsinin hazırlanması, tərkbinin təsdiqlənməsi və görüləcək işlərlə bağlı planlaşdırma işləri icra mərhələsindədir.<br>• Karyera və məşğulluq mərkəzinin fəaliyyət mexanizmi işlənib hazırlanmış, məzunlarla davamlı əlaqə sistemi qurulmuşdur.<br>• Məzunların məşğulluğu ilə bağlı statistik göstəricilər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət məşğulluq Agentliyi, Məzunların məşğulluq reytinqi və digər göstəricilər Karyera və məşğulluq mərkəzi tərəfindən təhlil olunur.<br>• Universitet üzrə bir sıra müxtəlif adlarda klublar mövcud olduğu halda, aktiv fəaliyyət göstərmirlər. Tələbələrin sosiallaşmasını təmin etmək üçün klubların fəaliyyətinin gücləndirilməsi, tələbələrin müxtəlif sahələrdə öz bacarıqlarını inkişaf etdirməsinə dəstək olacaq.<br>• Universitetdə strukturlar arası kommunikasyanın gücləndirilməsi, qarşılıqlı əməkdaşlıq mühiti və mədəniyyətinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur.<br>• AzTU-nun İctimaiyyətlə əlaqələr və marketinq siyasətinin müəyyənləşdirilməsi, universitetin yerli və beynəlxalq bazarda PR vasitəsilə tanıdılması qarşıda duran əsas hədəflərdəndir**.** |
| **Dayanıqlı dünya** | • 08 sentyabr 2021-ci il tarixli əmrlə Dayanıqlı inkişaf institutu yaradılmışdır.<br>• Biznesin təşkili və idarə edilməsi (Beynəlxalq logistika və təchizat zəncirinin idarə edilməsi) ixtisaslaşması (MBA) üzrə, Ekologiya mühəndisliyi ixtisası üzrə təhsil proqramlarına dayanıqlı inkişafla bağlı mövzular inteqrasiya edilmişdir.<br>• 20.11.2023 AzTU-da universitet-sənaye əməkdaşlığı kontekstində dövlət - akademiya - biznes və ictimai təşkilatların nümayəndələrinin birgə iştirakı ilə “Qida tullantılarının təkrar emalı” mövzusunda dəyirmi masa keçirilmişdir.<br>• 26.12.2023 Azərbaycan Texniki Universitetində (AzTU) dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində universitetin həyətində hər birinin gücü 500 vatt olan dörd ədəd müasir günəş panellərindən ibarət gücü 2 kVt olan günəş elektrik stansiyası istifadəyə verilmişdir.<br>• AzTU-da yaşıl enerji texnologiyalarının tədrisi üzrə bilik və bacarıqların davamlı yüksəldilməsi, energetika sahəsində yüksəkixtisaslı kadrların hazırlanması üçün universitetin həyətində külək qurğusu (hər birinin gücü 2 kVt olan 2 ədəd külək turbini, elektrik enerjisinin akkumlyasiyası üçün tutumu 2000 Amper-saat olan batareya) istifadəyə verilmişdir.<br>• 2024-cü il üzrə Birinci layihə “İqlim dəyişikliyinə həssas olan ölkələrdə su ehtiyatlarının mühafizəsi və dayanıqlı idarə olunması” adlanır. Azərbaycan da daxil olmaqla, su ehtiyatlarının səmərəli idarə olunmasına ehtiyac olan ölkələrə yönəlmiş bu tədqiqat layihəsi yağış sularının toplanması, tullantı suların təkrar emalı, sahilboyu ərazilərdə dəniz |

| | |
|---|---|
| | suyunun duzsuzlaşdırılması, nohur və bataqlıqların su ehtiyatlarının dayanıqlı idarə olunmasının texniki və iqtisadi qiymətləndirilmələrini əhatə edir.<br>• İkinci layihə AzTU-nun bir hektar ərazidə yaradacağı Yaşıl Texnologiya Parkının yaşıl enerji ilə təmin olunmasına aiddir. Parkın ərzasizindəki tikililərin damında ümumi gücü 1,5 meqavat olan günəş panellərinin quraşdırılması, panellərin elektrik enerjisi istehsal etməklə yanaşı, təbii işıqlandırmanı təmin etməsi, AzTU-nu avtonom olaraq ehtiyaclarını yaşıl enerji ilə təmin etməklə yanaşı, ətrafdakı obyektləri da enerji ilə təchiz edəcək.<br>• AzTU nəzdində 1967-ci ildən fəaliyyət göstərən poliklinika Azərbaycan Texniki Universitetinin tələbə və müəllimlərinə tibbi xidmət göstərir. Müəssisədə ilkin tibbi yardım, müalicə və profilaktik tibbi xidmətlər (cərrahi, infeksion, terapevtik, laborator, kardioloji, oftalmaloji, stomatoloji, nevroloji və otorinolaringoloji kabinetlər) göstərilir. |

# Strateji inkişaf planının Dayanıqlı inkişaf məqsədləri (SDG) ilə əlaqəsi



## 1. Keyfiyyətli təhsil

| Məqsəd | Hədəf | Alt hədəf | Fəaliyyət | Icra müddəti | Nəticə indikatoru |
|---|---|---|---|---|---|
| **1.Qlobal səriştələrin mənimsənilməsi üçün bütün təhsil səviyyələrində müasir standartlara uyğun keyfiyyətli tədrisi təmin etmək.** | 1.1. Tədris prosesində bütün ixtisaslar üzrə proqramların (kurikilumuların) yerli və beynəlxalq tələbat nəzərə alınaraq təkmilləşdirilməsi | 1.1.1 Tələbələrin ixtisasyönümlü praktiki bacarıqlarının yüksəldilməsi üçün tədris prosesində tələbələrin elmi və praktiki təcrübələrini inkişaf | Tədris prosesində elmi-tədqiqat layihələri, laboratoriya işləri və sahə təcrübələri təşkil olunması, tələbələrin real dünya problemləri ilə işləmə bacarıqlarının inkişaf etdirilməsi. | 2026-2030 | Tələbələrin elmi-tədqiqat layihələrində, laboratoriya işlərində və sahə təcrübələrində iştirak dərəcəsinin artırılması, real dünya problemlərinə yönəlmiş layihələrdə tələbələrin uğurlu nəticələr əldə etməsi. |
| | | 1.1.2 Müasir çağırışları qarşılayan Öyrətmə və Öyrənmə Mərkəzinin yaradılması və 2030-cu ilədək bütün ixtisaslar (proqram) üzrə professor-müəllim heyətinin metodoloji hazırlığının təmin edilməsi; | Universitet üzrə akademik heyətin təlim ehtiyaclarının öyrənilməsi, müvafiq metodiki təlimlərin təşkil olunması. | 2025-2030 | Metodiki təlimlərdən keçmiş professor müəllim heyətinin 80%-ə çatdırılması. |
| | | 1.1.3 Təlim prosesinin dərketmənin bütün mərhələləri üzrə tələbələrdə müvafiq bacarıq və səriştələrin formalaşması istiqamətində təşkil edilməsi; | Təlim prosesinin dərketmənin bütün mərhələləri üzrə təşkil edilməsi, təlim nəticələrinin müəyyənləşdirilməsi. | 2024-2025 | Proqramlarda və fənn sillabuslarında təlim nəticələrinin öz əksini tapması. |
| | | 1.1.4 CDIO-ya tamhüquqlu üzv olmaqla, bir sıra ixtisaslarda bu yanaşma ilə yeni nəsil mütəxəssis hazırlığına başlanılması, 2030-cu ilədək mühəndis hazırlığının CDIO standartları əsasında aparılmasının təmin olunması. | CDIO üzvlüyə qəbul olunma;<br>Tədris planlarında müvafiq dəyişikliyin edilməsi. | 2024-2026 | CDIO üzvlüyün təsdiq edilməsi.<br>Müəyyənləşdimiş ixtisasların siyahısı.<br>Təsdiqlənmiş yeni tədris planları. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.1.5 Tədris planları və kurikulumlarının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə CDIO yanaşmasının təhsil proqramlarının yenilənməsində istifadə edilməsi (xüsusilə, Materialşünaslıq, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, Maşın mühəndisliyi ixtisaslarının tədris proqramları) | Tədris proqramlarına müvafiq dəyişikliklərin edilməsi, CDIO yanaşmasının Materialşünaslıq, Kompüter elmləri, Elektrik və elektronika mühəndisliyi, Maşın mühəndisliyi ixtisaslarının proqramlarına inteqrasiyası. | 2025-2026 | Proqramlarda dəyişikliklərin nəzərə alındığı sillabusların 95% hazırlanması, İxtisaslara uyğun olaraq CDIO yanaşmasının tətbiqi üzrə tədris materiallarının 30%-nin yenilənməsi. |
| | 1.2. Qlobal səriştələr kontekstində öyrətmə və öyrənməni iqtisadiyyatın və cəmiyyətin ehtiyaclarını nəzərə alaraq, təhsilalanlar və təhsilverənlər üçün təhsilin bütün səviyyələrində həyata keçirmək: | 1.2.1. Mühəndis hazırlığında orta ixtisas təhsili və ali təhsildə əlaqəli, fasiləsiz təhsilin təmin olunması məqsədilə orta ixtisas və ali təhsil pillələri arasında inteqrasiyanın həyata keçirməsi. | Mühəndis hazırlığı üzrə orta ixtisas təhsili müəssisələri ilə əməkdaşlıq. | 2025-2026 | 2 baza orta ixtisas təhsili müəssisəsinin seçilməsi, əməkdaşlıq ediləcək sahələrin müəyyənləşdirilməsi. |
| | | 1.2.2 Orta ixtisas təhsili və ali təhsil müəssisələri arasında birgə tədris proqramları, təcrübə və staj imkanları, müəllim mübadiləsi, tələbə keçid sisteminin təkmilləşdirilməsi. | Orta ixtisas təhsil müəssisələri ilə tədris planları və fənn proqramlarının hazırlanması istiqamətində əməkdaşlıq edilməsi. Subbakalvriat və bakalavriat təhsil səviyyələri arasında “yumşaq” keçidin təmin olunması. | 2025-2027 | Subbakalavr-bakalavr arasında keçid edən tələbələrin say göstəricisi, staj proqramlarına qatılan tələbələrin faiz nisbəti və müəllim mübadiləsi proqramlarından faydalanan müəllimlərin sayı. |
| | | 1.2.3 AzTU və ümumi təhsil müəssisələri arasında əməkdaşlıq quraraq, karyera inkişafı və təcrübə imkanları | AzTU və ümumi təhsil müəssisələri arasında əməkdaşlıq müqavilələri imzalayaraq, karyera inkişafı və təcrübə imkanları üzrə birgə | 2026-2030 | Birgə layihələrdə iştirak edən məktəb və universitet tələbələrinin sayı, karyera inkişafı və təcrübə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | üzrə birgə layihələr həyata keçirmək. | seminarlar, təlimlər və staj proqramları təşkil etmək. | | proqramlarında iştirak edən tələbələrin faiz nisbəti. |
| | | 1.2.4. 2030-cu ilədək universitet daxilində və ümumtəhsil məktəblərində mükəmməl “İstedadların axtarışı və inkişaf etdirilməsi” layihəsini həyata keçirmək; | Ümumtəhsil müəsissələrindən şagirdlərin AzTU-ya cəlb edilməsi. | 2026-2030 | Keçirilmiş “İstedadların axtarışı və inkişaf etdirilməsi” layihəsininin hesabatı. |
| | | 1.2.5 Peşə təhsili mərkəzləri ilə əməkdaşlıq quraraq, birgə staj və təcrübə imkanları təqdim etmək, tələbələrin praktiki bacarıqlarını artırmaq. | Peşə təhsili müəssisələri ilə əməkdaşlığın yaradılması. Tələbələrin praktiki bacarıqlarını artırmaq və onları iş dünyasına hazırlamaq | 2027-2030 | Baza peşə təhsili müəssisənin seçilməsi, Tələbələrin staj və təcrübə proqramlarında iştirak faizi. |
| | 1.3. Tələbələrin gələcək karyeraları üçün peşə bacarıqları, fənlərarası biliklər, tədqiqat üsulları, "yumşaq bacarıqlar"ının formalaşdırılması, yenilikçilik və təşəbbüskarlıq vərdişlərinin inkişaf etdirilməsi. | 1.3.1 Yeni qəbul olunmuş tələbələr üçün orientasiya proqramının təşkil olunması, ixtisasları üzrə təhsilin məzmununu və sahələri üzrə karyera imkanlarını əks etdirən təlimatın (yol xəritəsi təqdim etmək) hazırlanması, | Orientasiya proqramlarının təşkil olunması, ixtisaslar üzrə müvafiq təlimatların hazırlanması. | 2025-2026 | Tədris ilinin əvvəlində keçirilmiş orientasiya görüşlərinin sayı, linkləri, ixtisaslar üzrə hazırlanıb təsdiqlənmiş təlimatların (yol xəritəsi) sayı. |
| | | 1.3.2 Tədris proqramları hazırlanarkən əmək bazarının tələblərinə uyğunluğun təmin edilməsi, aparıcı şirkətlərin universitetdə laboratoriyalarının qurulmasına təşviq edilməsi, praktiki məşğələlərin həcminin 50%-dək artırılmasına nail olmaq | Tədris proqramları hazırlanarkən əmək bazarı nümayəndələrindən rəylərin alınması;<br>Aparıcı şirkətlərin dəstəyi ilə mövcud elmi-tədqiqat və tədris laboratoriyalarının yenidən təşkili, yenilərinin yaradılması. | 2025-2030 | Keçirilmiş sorğular və ya görüşlərin linkləri;<br>Yenidən təşkil edilmiş və yeni yaradılmış laboratoriyaların sayı. |
| | | 1.3.3 Tələbələrin əmək bazarında cəmiyyətin | “Yumşaq bacarıqlar” fənninin tədris planlarına | 2024-2030 | Təsdiqlənmiş fənn proqramı və sillabusu, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | müasir tələblərinə cavab verməsi üçün birinci və ikinci tədris ilində Yumşaq bacarıqlar (işgüzar ünsiyyətin qurulması, emosional intellektin inkişafı, əmək bazarında rəqabət üstünlüyü qazanmaq, öz imicini yaratmaq, komandada iş) fənninin tədris edilməsi; | salınması, fənn sillabusları və proqramlarının hazırlanması. | | "Yumşaq bacarıqlar" fənninin tədris edildiyi proqramların (ixtisas) sayı. |
| | | 1.3.4 Dördüncü tədris ili tələbələrinə (bütün ixtisaslar üzrə) "Öz biznesinin qurulması" fənninin tədrisinin təşkili (qazandıqları bilik və bacarıqlar üzrə biznes-ideyalarını reallaşdırmaq üçün hazırladıqları biznes-plan əsasında dəyərləndirilməsi). | Tədris planında müvafiq dəyişikliyin edilməsi, "Öz biznesinin qurulması" fənni üzrə proqram və sillabusunun hazırlanması. | 2025-2030 | Təsdiqlənmiş fənn proqramı və sillabusu. "Öz biznesinin qurulması" fənninin tədris edildiyi proqramların (ixtisas) sayı. |
| | 1.4. Ali təhsildə dayanıqlı inkişaf, müasir texnologiyalar və multidissiplinar ixtisasların inkişafı ilə əlaqədar mütəxəssis hazırlığının gücləndirilməsi və beynəlxalq təcrübədən yararlanmaq. | 1.4.1 Ali təhsilin magistratura və doktorantura səviyyələrində təlim-tədris prosesində dayanıqlı inkişaf məqsədlərinin tətbiqini təmin etmək | Magistratura və doktorantura səviyyələrində tədqiqat işlərində dayanıqlı inkişaf məqsədlərinin nəzərə alınması. | 2025-2030 | Dayanıqlı inkişafla bağlı tədqiqat mövzularının sayının artması və bu sahədə nəşr olunan elmi məqalələrin sayındakı artım. |
| | | 1.4.2 Azərbaycanda və regionda elmi-pedaqoji kadrlara tələbatın ödənilməsi, doktorantura səviyyəsində təhsil və tədqiqatın keyfiyyətini və səmərəliliyini daim artırmaq; | Ölkə və regionda doktorantura üzrə kadr tələbatı ehtiyaclarının öyrənilməsi, doktorantura proqramlarının təkmilləşdirilməsi, müasir tədqiqat metodologiyalarının öyrədilməsi. | 2025-2030 | Doktorantura proqrmalarına qəbul olanların say artımı. Təkmilləşdirilmiş proqramların sayı, Tətbiq olunmuş yeni tədqiqat metodologiyaları. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.4.3 Ölkənin prioritetləri əsas götürülməklə layihə və problem əsaslı öyrənmə metodologiyasının tədris proqramlarında nəzərə alınması; | Prioritet sahələrin müəyyənləşdirilməsi, Problem və layihə əsaslı tədrisin təşkili, Akademik heyətə müvafiq təlimlərin keçirilməsi, Qiymətləndirmə metodlarının yenilənməsi. | 2025-2026 | Müvafiq dəyişikliklər edilmiş, təsdiqlənmiş fənn proqramları və sillabuslarının sayı |
| | | 1.4.4 Türkiyə və Almaniya universitetlərinin layihə və problem əsaslı öyrənmə metodologiyası üzrə təcrübəsindən yararlanmaq, Türkiyənin elm və texnoloji mərkəzlərinin dəstəyindən istifadə etmək; | Almaniya və Türkiyənin universitetləri ilə təcrübə mübadiləsi proqramlarının təşkili, Hər iki ölkənin universitetləri ilə birgə layihələr və tədqiqat proqramları hazırlama, Türkiyənin elmi və texnoloji mərkəzləri ilə əməkdaşlıq edərək staj və praktiki təcrübə imkanları yaratmaq. | 2024-2030 | Təcrübəsi mübadiləsi proqramlarında iştirak edən tələbə və müəllimlərin sayındakı artım, Hazırlanan birgə layihə və tədqiqat proqramlarının sayı, Staj keçən tələbələrin sayı, işə yerləşmə faizi. |
| | | 1.4.5 AzTU-nun Azərbaycanda və xarici ölkələrdə çalışan yüksək ixtisaslı tədqiqatçı, sahibkar, menecer və s. məzunları və digər tərəfdaşlarla birlikdə ali təhsilin bütün səviyyələrində təhsil alan tələbələrinə yüksək keyfiyyətli təhsil verilməsinə nail olmaq; | AzTU-nun təcrübəli, müxtəlif sahələrdə fəaliyyət göstərən məzunlarla əməkdaşlıq əlaqələrinin qurulması, onların təlim-tədris prosesinə cəlb edilməsi. | 2024-2030 | Məzunlar Assosiasiyası üzvləri və digər AzTU məzunları tərəfindən keçirilmiş təlimlər, masterklas, seminar və s. |
| | | 1.4.6 2026-cı ilədək bir neçə ixtisasın, fənlərin qovşağında multidissiplinar ixtisas və peşələrin yaranmasından irəli gələn çağırışları qarşılamağa hazır olmaq, “Gələcəyin ixtisasları” konsepsiyasını mənimsəmək; | “Gələcəyin ixtisasları” Konsepsiyasının hazırlanması, yeni ixtisasların təklif edilməsi üçün nəzərə alınması, bu ixtisasların əmək bazarının tələbləri ilə uyğunluğunun qiymətləndirilməsi. | 2024-2025 | “Gələcəyin ixtisasları” konsepsiyasına uyğun olaraq yeni ixtisasların hazırlanması və təklif edilməsi, bu ixtisasların əmək bazarının tələbləri ilə uyğunluğunun qiymətləndirilməsi. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1.4.7 2030-cu illədək süni intellekt, robotlaşma və avtomatlaşdırmanın sürətli tətbiqinin gözləndiyini nəzərə alaraq, yaranacaq yeni multidissiplinar ixtisaslar üzrə mütəxəssis hazırlığı, mövcud ixtisasların yenilənməsi və əvəz olunması istiqamətində fəaliyyət həyata keçirmək. | "Gələcəyin ixtisasları" Konsepsiyasından irəli gələn dəyişikliklərin yeni tədris planlarında nəzərə alınması, yeni yaranacaq ixtisaslar üzrə mütəxəssislərin hazırlanması məqsədilə təlimlərin təşkil edilməsi. | 2024-2026 | Təsdiqlənmiş tədris planı, fənn proqramları və sillabuslar. Multidissiplinar ixtisas proqramları üzrə akademik heyət üçün keçirilmiş təlimlər. |
| | 1.5 Rəqəmsal platformadan heç kəsi kənarda qoymamaqla hamı üçün bərabər və keyfiyyətli təhsil verən ağıllı universitet quruculuğunu inkişaf etdirmək: | 1.5.1 2026-cı ilədək AzTU-da bütün sahələrdə rəqəmsallaşmanı təmin etmək məqsədilə rəqəmsal idarəetmə, mükəmməl elektron tələbə-məlumat bazasının yaradılması, tədris prosesinin elektron təşkili və idarə edilməsi, elektron kitabxana informasiya sisteminin təşkilinə və xidmətlərin elektronlaşmasına nail olmaq; | Rəqəmsal idarəetmə sisteminin Yaradılması. Elektron tələbə-məlumat bazasının yaradılamsı. Elektron təhsil sisteminin yaradılması. Elektron kitabxana və informasiya sistemi. Xidmətlərin elektronlaşması. | 2024-2026 | Yaradılmış elektron baza və sistemlərin istifadəyə verilməsi, istifadəçi sayı, məlumatların təhlükəsizliyi dərəcəsi, istifadəçi sayı, xidmətlərin effektivliyi dərəcəsi. |
| | | 1.5.2 2030-cu ilədək rəqəmsallaşmanın imkanlarından istifadə eməklə distant təhsil texnologiyalarının tətbiqini artırmaq, fənlərin onlayn olaraq mənimsənilməsini təmin etmək üçün yeni nəsil öyrətmə metodologiyaları işləmək, onlayn dərəcə proqramları və fənlərin tədris metodiki | Distant tədris texnologiyalarının təkmilləşdirilməsi, interaktiv öyrənmə platformalarının inkişafı, tədris materiallarının rəqəmsallaşdırılması. | 2026-2030 | Onlayn tədris platforması, interaktiv alətlər, videokonfrans və canlı dərslər, hazırlanmış rəqəmsal tədris materialları. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | kompleksində elektron kontentlərin yaradılmasını təmin etmək; | | | |

## 2. Tədqiqat və innovasiya

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.Yüksək texnologiyalı sənayeni dəstəkləyən tədqiqatları keyfiyyətli tədrisin, yenilikçiliyin və təşəbbüskarlığın əsası kimi təşviq etmək. | 2.1 Tədqiqat meyarlarını sənayedə və qabaqcıl texnologiya universitetlərində olan meyarlar səviyyəsinə qaldırmaq. | 2.1.1 Dayanıqlı İnkişaf Məqsədlərinə (Sustainable Development Goals) uyğun olaraq ölkəmizin innovativ texnoloji inkişafına yönələn keyfiyyətli tədqiqatların və tədrisin aparılması, sənaye həllərinin işlənməsi, sahibkarlıq və innovativ mühitin formalaşmasına təkan vermək; | Dayanıqlı inkişaf məqsədləri nəzərə alınaraq tədqiqatların aparılması və tədris prosesində nəzərə alınması, KOB model müəssisəsinin yaradılması, | 2024-2030 | Dayanıqlı inkişaf məqsədlərinin tətbiqinə dair fəaliyyət planı, hesabat, KOB model müəssisəinin yaradılması ilə bağlı Elmi Şuranın qərarı. |
| | | 2.1.2 AzTU-da tədqiqat işlərinin (xüsusilə dissertasiya işlərinin) yerinə yetirilməsinin real layihələr əsasında həyata keçirilməsi, nəticələrinin tətbiqi və nəşrinin davamlı olaraq dəstəkləmək; | İnnovativ tədqiqat mərkəzlərinin yaradılması və laboratoriyaların təkmilləşdirilməsi, Sənaye-akademik tərəfdaşlıqlar çərçivəsində dissertasiya işlərinin real layihələrə əsaslanması, tədqiqat nəticələrinin sənaye tətbiqinə yönəldilməsi. | 2024-2030 | Yaradılmış institutların təkmilləşdirilməsi, təkmilləşdirilmiş laboratoriyaların sayı, real layihələrə əsaslanan dissertasiya işlərinin 80%-ə çatdırılması, tədqiqat nəticələrinin nəşr olunduğu toplu. |
| | | 2.1.3 AzTU-nun Elmi Əsərlər jurnalının müasir standartlara uyğun dərci, sahələr üzrə müasir beynəlxalq statuslu jurnallar formalaşdırılması, tədqiqatların nəticələrini universitetin və dünyanın yüksək statuslu jurnallarında dərc edilməsini təmin etmək; | Keyfiyyətli redaksiya komandasının qurulması, jurnalın indeksləşdirilməsinin təmin edilməsi və tədqiqat nəticələrinin tanınmış jurnallara təqdim edilməsi | 2024-2030 | Beynəlxalq indekslərdə yer almış elmi jurnal, dərc olunmuş məqalələrin sayındakı və keyfiyyətindəki artım, yüksək impakt faktorlu jurnallarda nəşr olunmuş məqalə sayında artım. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2.1.4 Beynəlxalq indeksli jurnal statusuna malik bir elmi jurnalın təsis olunması. | AzTU-da təsis edilmiş elmi jurnalların keyfiyyətinin artırılması, redaksiya komandasının təkmilləşdirilməsi, mıqalələrin beynəlxalq indekslərdə nəşr olunması üçün təlimatların hazırlanması | 2026-2027 | Beynəlxalq sitat və indeksləşdirmə sisteminə daxil edilmiş elmi jurnal. |
| | | 2.1.5 2025-ci ildə akademik əməkdaşlar üçün "elmi etika" qaydalarının hazırlanması və qəbul edilməsinə dəstək vermək və bunun üçün institutsional və digər dəstəkləri təmin etmək. | "Elmi etika" qaydalarının hazırlanması və təsdiqlənməsi. | 2024-2025 | Elmi Şurada təsdiqlənmiş "Elmi etika" qaydaları. |
| | | 2.1.6 Tədqiqat İnstitutları ilə kafedraların və tədqiqat laboratoriyalarının fəaliyyətinin əlaqələndirilməsinin təmin edilməsi. | Tədqiqat institutlarının əsasnamələri və fəaliyyət planlarının hazırlanması. Tədqiqat institutları, kafedralar və tədqiqat laboratoriyaları arasında əməkdaşlıq mexanizmlərinin yaradılması və birgə elmi-tədqiqat layihələrinin təşviqi. | 2025-2026 | Təsdiqlənmiş əsasnamə və FP-nın sayı, Əlaqələndirilən institut, kafedra və laboratoriyaların, həmçinin birgə tədqiqat layihələrinin sayı.<br>Nəşr olunan elmi məqalə, patent və sənaye tərəfdaşlığı müqavilələrinin sayı. |
| | 2.2. Tədqiqat işlərini layihə əsaslı rəqabətə əsaslanan maliyyələşdirmə əsasında aparmaq: | 2.2.1 AzTU-da iqtisadiyyatın, cəmiyyətin, habelə tədris prosesinin və xidmət sahələrinin inkişafına töhfə verən davamlı, məsuliyyətli və yüksək səviyyəli tədqiqat qruplarının dəstəklənməsi; | Tematik tədqiqat qruplarının formalaşdırılması, onlara maliyyə və resurslarla bağlı dəstəyinin göstərilməsi. | 2025-2030 | Formalaşdırılmış tədqiqat qruplarının sayı, dəstəklə bağlı hazırlanmış maliyyə modeli. |
| | | 2.2.2 AzTU-da innovativ düşüncəli və təşəbbüskar tədqiqat qrupları üçün riskləri azaltmaq, universitet üçün əsas araşdırma | Universitet üçün əsas araşdırma sahələrinin müəyyənləşdirilməsi, stimullaşdırıcı maliyyə modelinin təkmilləşdirilməsi. | 2025-2030 | Müəyyənləşdirilmiş əsas tədqiqat sahələrinin sayı, ayrılmış maliyyə vəsaitinin miqdarı, |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | sahələrində tədqiqat qrupları arasında əməkdaşlığı gücləndirmək, universitetdaxili motivasiyaedici maliyyələşdirmə modelini davamlı olaraq inkişaf etdirmək; | | | təkmilləşdirilmiş maliyyə modeli. |
| | | 2.2.3 Universitetdə rəqabətə əsaslanan maliyyələşməni artırmaq və əsas sahələr üzrə maliyyə dəstəyi üçün müraciət edən tədqiqat qruplarına yardım göstərən mexanizm yaratmaq. | Tədqiqat qruplarının layihə təkliflərinin qəbul edilməsi və qiymətləndirilməsi, maliyyələşməsi mexanizminin yaradılması. | 2026-2030 | Maliyyə dəstəyi əldə edən layihələrin sayı |
| | | 2.2.4 Tədqiqatların dəstəklənməsi məqsədilə hər tədris ilində real problemləri qarşılayan müxtəlif sahə və nominasiyalar üzrə layihə əsaslı ən azı 3 müsabiqənin keçirilməsi və layihə komandalarının stimullaşdırılmasının təmin edilməsi. | Tədqiqatları dəstəkləyən layihə əsaslı müsabiqələrin təşkili və layihə komandalarının stimullaşdırılması. | 2024-2030 | İştirak edən tədqiqat qruplarının sayı, qalib gələn layihələrin elmi nəşrlərə və innovativ məhsullara çevrilmə faizi. |
| | | 2.2.5 Qlobal ali təhsil bazarında davamlı mövqeyə malik olmaq və beynəlxalq reytinq cədvəllərində layiqli mövqedə yer almaq | Qlobal ali təhsil bazarında mövqeyin gücləndirilməsi üçün beynəlxalq əməkdaşlıq, tələbə mübadiləsi, elmi nəşrlərin artırılması, ingilis dilli tədrisin genişləndirilməsi və beynəlxalq reytinq sistemlərinə inteqrasiya fəaliyyətinin həyata keçirilməsi. | 2025-2030 | QS reytinq sistemində ilk 1000-yə düşmək;<br>Times Higher Education reytinq sistemində ilk 1500-yə düşmək |

| | | | | | |
|---|---|---|---|---|---|
